**<u>Mətbuat çıxışı</u>**

# WAidid Azərbaycana gəlir: Bakıda Mikrobiologiya və İmmunologiya Cəmiyyəti (ASSMI) ilə əməkdaşlıq razılaşması imzalanmışdır.

*Professor Suzanna Espozitonun sədrlik etdiyi Yoluxucu Xəstəliklər və İmmunoloji Pozğunluqlar (www.waidid.org) üzrə Dünya Assossasiyası – Waidid, elmi tədqiqatlara istiqamətlənmiş təşəbbüslərə təkan vermək, həmçinin uşaq və yetgin yaşlarda yoluxucu xəstəliklər sahəsində peşəkar hazırlıq məqsədilə Azərbaycan Respublikasının Tibbi Mikrobiologiya və İmmunnologiya Cəmiyyəti, ASSMI ilə elmi əməkdaşlıq haqqında razılaşma imzalamışdır.*

**Milan, 12 fevral 2015-ci il –** Bu, uzun illər ərzində İtaliya və Azərbaycan arasında olan uğurlu siyasi və iqtisadi əlaqələrə əsaslanan, bu gündən isə iki elmi araşdırma institutu, yəni Milanın **Waidid** və **Azərbaycan Tibb Universitetinin** Mikrobiologiya və İmmunologiya Kafedrasının müdiri Professor Zakir Qarayevin başçılıq etdiyi və Bakı şəhərində fəaliyyət göstərən **ASSMI** arasında həyata keçiriləcək əməkdaşlıq lahiyəsi ilə səciyyələnən möhkəm bir dostluqdur.

Layihənin başlıca məqsədi **yoluxu xəstəlik və immunoloji pozğunluqlar** sahəsində həkimlərin hazırlanması və elmi tədqiqatlara istiqamətlənmiş təşəbbüslərin təşviqi, eyni zamanda hər iki ölkə də hələ də geniş yayılmış bəzi xəstəliklərə dair düzgün ictimai fikir formalaşdırmaqdır.

*“ Azərbaycan və ASSMI ilə əməkdaşlığımızın yaranması haqqında məlumat vermək mənim üçün böyük bir fəxrdir – bu sözləri Waididi-in prezidenti və Milan Xəstəxanasının İntensiv terapiya Pediatriya şöbəsinin müdiri prof. Suzanna Espozito deyərək davam etmişdir: “Mən əminəm ki, biz birlikdə hər iki ölkədə infeksiologiya sahəsində informasiya və elmi tədqiqatlara təkan verməyə yardım edəcək nəhəng layihələr həyata keçirəcəyik. Məsələn, azərbaycanlı həkimlərin Milanın yüksək səviyyəli səhiyyə mərkəzlərində peşəkar ixtisaslaşması, eyni zamanda həm İtaliya, həm də Azərbaycanda beynəlxalq elmi “workshop”ların təşkil olunması nəzərdə tutulmuş təşəbbüslərdəndir. Bundan əlavə, biz WAidid-in vərəmlə əlaqədar yaradılmış beynəlxalq işçi qrupuna azərbaycanlı bir mütəxəssisi cəlb etməkdən məmnun olardıq”.*

*Professor Zakir Qarayev isə əlavə edərək bildirmişdir: “Biz doğrudan da Waidid və İtaliya ilə bu yeni əməkdaşlığa başlamağımıza görə çox xoşbəxtik. Bizim məqsədimiz ondan ibarətdir ki, biz bütün dünya ölkələri ilə, bu dəfə isə məhz İtaliya ilə olan əlaqələrimizi, xüsusən də səhiyyə sahəsində mövcud əlaqələrimizi davam etdirək və möhkəmləndirək. Həmçinin mən əminəm ki, həyata keçirəcəyimiz layihələr ölkəmizin səhiyyə sahəsinin inkişaf etdirilməsinə öz böyük töhvəsini verəcək və səhiyyənin ən yüksək səviyyəyə çatmasına imkan yaradacaq”.*

2016-cı ilin fevral ayında Milanda infeksiologiya səhəsi üzrə Waidid-in ilk illik konqresi baş tutacaq. Dünyanın ən yaxşı ekspertlərinin iştirak edəcəyi bu tədbirə Azərbaycan səhiyyə sahəsinin də görkəmli nümayəndələri təşrif buyuracaqlar.

**Waidid mətbuat ofisi**
GAS Kommunikasiya
Françeska Rossini – Manuela İndrakkolo – Sara Berlanda
Tel 06 68134260
f.rossini@gascommunication.com; m.indraccolo@gascommunication.com; s.berlanda@gascommunication.com